

Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2



Dərman vasitələri və reklam haqqında qanunlarda dəyişiklik edildi

3



Ailə Məcəlləsinə tibbi müayinələrlə bağlı dəyişiklik edildi

3


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 11-12 (795) 28 iyun 2024-cü il    Qəzet 1991-ci ildən nəşr olunur    www.tibbqazeti.az


## Dərman vasitələri ilə bağlı qanunvericiliyə dəyişikliklər edildi



2

## «İqlim dəyişikliyi və səhiyyə: Birgə fəaliyyət üçün qlobal baxış»

*Azərbaycanın səhiyyə naziri ÜST-nin keçirdiyi strateji dəyirmi masada çıxış edib*



7

## Səhiyyə Nazirliyində «Malyariyaya son» təşkilatı və Dünya Bankının rəhbər şəxsləri ilə görüş keçirilib




7


Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az


## Nobel mükafatçısı Azərbaycan Tibb Universitetində mühazirə oxuyub



11

*Aforizm*

*Uğura deyil, onun verdiyi dəyərlərə can atın.*

*Albert Eynşteyn*

# «Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.4-cü bənddə «on doqquzuncu» sözləri «iyirminci» sözü ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

«2.4-1. həmin Qanunun 5-ci maddəsinin yeddinci hissəsində «qəyyumluq və himayə orqanları», 7-ci maddəsinin altıncı hissəsində «qəyyumluq və himayəçilik orqanı» və yeddinci hissəsində «qəyyumluq və himayə orqanı» dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdiriləndək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;».

**2.** «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 706 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə «16.1 - 16.3-cü» sözləri «16.1-ci maddəsinin birinci abzasında, 16.2-ci və 16.3-cü» sözləri ilə əvəz edilsin;

2.2. 2.3-2.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

«2.3. həmin Qanunun 14-cü maddəsinin adında və 14.0-cı maddəsinin birinci abzasında «qəyyumluq və himayə orqanları» dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdiriləndək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

2.4. həmin Qanunun 16-cı maddəsinin adında, 16.2-ci və 16.3-cü maddələrində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 16.1-ci maddəsinin birinci abzasında «orqan (qurum)» dedikdə aşağıdakılar nəzərdə tutulur:

2.5.1. həmin Qanunun 16.1.1-ci, 16.1.3-cü, 16.1.5-16.1.7-ci maddələrinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi;

2.5.2. həmin Qanunun 16.1.2-ci və 16.1.4-cü maddələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;

2.5.3. həmin Qanunun 16.1.8-ci maddəsinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;»;

2.3. aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

«2.6. həmin Qanunun 16.1.5-ci maddəsində «qəyyumluq və himayə orqanları» dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.».

**3.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası»nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.5.18-ci yarımbəndə «verilmiş» sözündən sonra «, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdiriləndək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş» sözləri əlavə edilsin;

3.2. 2.8-ci bənddə «Yerli» sözü «Bu Qaydanın 2.5.18-ci yarımbəndi nəzərə alınmaqla, yerli» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 iyun 2024-cü il*




# Dərman vasitələri ilə bağlı qanunvericiliyə dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi ««Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında» Qanunu imzalayıb.**

Bu sənədə əsasən, «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» 2023-cü il 14 iyul tarixli Qanunun icrası ilə əlaqədar qərara alınıb ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 15.2.1-ci maddəsində «tibbi preparatlardan» sözləri «dərman və tibb vasitələrindən» sözləri ilə əvəz edilsin.

Eləcə də «Sanitariya-epidemioloji salamatlıq haqqında» Qanunda bir sıra dəyişikliklər olunub. Belə ki, 13-cü maddənin adında, birinci hissəsinin birinci və ikinci abzaslarında «Normativ-texniki sənədləri» sözləri «Texniki normativ hüquqi aktları» sözləri ilə əvəzlənib. Üçüncü abzasda isə «dərman vasitələrinə dair normativ-texniki sənədləri» sözləri «dərman və tibb vasitələrinə, habelə dərman maddələrinə dair texniki normativ hüquqi aktları» sözləri ilə əvəz edilib. 17-ci, 27-ci, 39-cu maddələrdə də analoji dəyişikliklər olunub.

«Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında» Qanunun 3-cü maddəsinin ikinci hissəsinin dördüncü abzasında, həmçinin «Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında» Qanunun 6-cı və 12-ci maddələrində «həkim reseptləri» sözləri «resept» sözü ilə əvəz edilib.

«İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanunun 13-cü maddəsinin 1-ci hissəsinə üç abzas əlavə olunub. Burada qeyd edilir ki, «Dərman vasitələri haqqında» Qanuna əsasən, reseptə yazılmış təsiredici maddə üzrə aptek təşkilatında mövcud olan dərman vasitələri və onların qiymətləri barədə aptek təşkilatının satıcısı tərəfindən istehlakçıya məlumat verilməlidir. Habelə bildirilir ki, dərman vasitələrinin ekspertizası əsasında qablaşdırılması Azərbaycan, türk, rus, ingilis, alman, ispan, italyan, fransız və macar dillərində olan, dərman vasitələrinin sadələşdirilmiş ekspertizası əsasında isə beynəlxalq patentləşdirilməmiş adı və əmtəə nişanı adı latın və ya kiril əlifbasında olmaq şərtilə qablaşdırılması hər hansı dildə olan dərman vasitələri dövlət qeydiyyatına alınmaqla, dərman vasitələrinin dövlət reyestrinə daxil edilərək həmin dildə olan qablaşdırma ilə idxalına, satışına və istifadəsinə yol verilir. Dərman vasitəsinin Azərbaycan dilində olan istifadə təlimatı qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə istehlakçının tələbi əsasında aptek təşkilatı tərəfindən kağız formasında çap edilərək ona təqdim olunur.

«Patent haqqında» Qanunun 23-cü maddəsində «həkimin resepti» sözləri «resept» sözü ilə əvəz edilib.

«Əhalinin sağlamlığının qorunması haqqında» Qanunda olunan dəyişikliklərə görə, «tibbi texnika və dərman vasitələri» sözləri «dərman və tibb vasitələri, habelə dərman maddələri» sözləri ilə, «həkim resepti» sözləri «resept» sözü ilə, «tibbi təyinatlı texnika» sözləri «tibb vasitəsi» sözləri ilə, «tibbi təyinatlı texnikanın və məmulatların» sözləri «tibb vasitələrinin» sözləri ilə əvəzlənib. Habelə aşağıdakı məzmunda 36-1-ci maddə əlavə edilib:

*(Ardı səhifə 4-də)*

# Dərman vasitələri və reklam haqqında qanunlarda dəyişiklik edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ««Dərman vasitələri haqqında» və «Reklam haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Qanun imzalayıb.

«Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Milli Məclis tərəfindən 31 may 2024-cü il tarixdə qəbul edilmiş yeni Qanunun 1-ci maddəsi «Dərman vasitələri haqqında» Qanunda edilmiş dəyişikliklərlə bağlıdır.

Belə ki, Qanunun 1.0.20-ci maddəsi aşağıdakı redaksiyada verilir:

«1.0.20. bioloji aktiv qida məhsulları - qida rasionunu zənginləşdirmək məqsədilə nəzərdə tutulmuş, qidalandırıcı və fizioloji təsirə malik olan nutriyent və digər bioloji aktiv maddələrin birindən və ya bir neçəsindən ibarət, gündəlik qəbuletmə dozası müəyyənləşdirilmiş və dozalaşdırılmış (kapsul, tablet, ampul, damcı və digər analoji formada) qida məhsulu».

13.3-cü maddədə «uşaq yeməkləri, müalicəvi mineral sular, bioloji fəallığa malik qida əlavələri» sözləri «xüsusi təyinatlı qida məhsulları, təbii mineral sular, bioloji aktiv qida məhsulları» sözləri ilə əvəz edilib.

Bundan əlavə, Qanunun müxtəlif maddələrində ismin müvafiq hallarında «bioloji fəallığa malik qida əlavələri» sözləri ismin müvafiq hallarında «bioloji aktiv qida məhsulları» sözləri ilə əvəz olunub.

14-1.2-ci maddəyə aşağıdakı məzmunda cümlə əlavə edilib:

«Bioloji aktiv qida məhsulları, eyni zamanda, «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmalıdır».

14-1.4-cü maddədə birinci cümləyə «tələblərə« sözündən sonra «, habelə «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə» sözləri əlavə edilib.

14-1.5-ci maddədə birinci cümlə aşağıdakı redaksiyada verilib:

«Bioloji aktiv qida məhsullarının reklamında onların dərman vasitəsi olmadığı və müalicəvi xüsusiyyətlərə malik olmadığı haqqında məlumat verilməli, habelə «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınmasını təsdiq edən qeydiyyat nömrəsi göstərilməlidir».

Yeni Qanunun 2-ci maddəsi «Reklam haqqında» Qanuna edilən dəyişikliklərlə bağlıdır.

Bu Qanunun da müxtəlif maddələrində ismin müvafiq hallarında «bioloji fəallığa malik qida əlavələri» sözləri ismin müvafiq hallarında «bioloji aktiv qida məhsulları» sözləri ilə əvəz olunub.

Bundan başqa, 30.7-ci maddə aşağıdakı redaksiyada verilib:

«30.7. Bioloji aktiv qida məhsullarının reklamında onların dərman vasitəsi olmadığı və müalicəvi xüsusiyyətlərə malik olmadığı haqqında məlumat verilməli, habelə «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınmasını təsdiq edən qeydiyyat nömrəsi göstərilməlidir».

Dövlət başçısı həmçinin «Dərman vasitələri haqqında» və «Reklam haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1169-VIQD nömrəli Qanununun tətbiqi və «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman da verib.

Sənədə əsasən, «Dərman vasitələri haqqında» və «Reklam haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1169-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə Nazirlər Kabinetinə tapşırılıb ki, «Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 iyul tarixli 287 nömrəli Qərarının təkmilləşdirilməsinə dair zəruri tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin, habelə həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

Yeni Fərmanla ««Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik olunub. Sənədin 2.1-2-ci bəndində ikinci halda «üçüncü» sözü «dördüncü» sözü ilə əvəz edilib.

# Hərbi həkimlər təltif olundular

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında» Sərəncam verib.**

Sənədə əsasən, Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir sıra hərbi qulluqçuları orden və medallarla, o cümlədən 3-cü dərəcəli «Rəşadət» ordeni ilə, 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə, «Vətən uğrunda», «İgidliyə görə» «Cəsur döyüşçü», «Döyüşdə fərqlənməyə görə» və «Hərbi xidmətlərə görə» medalları ilə təltif ediliblər.

Mükafatlandırılanlar arasında hərbi həkimlər də var. Belə ki, tibb xidməti polkovnik-leytenantı Əliyev Namiq Elfail oğlu «Vətən uğrunda» medalı ilə, tibb xidməti polkovnikləri Mürsəlov Vüqar Rzaxan oğlu və Seyidov Niyaməddin Mirəziz oğlu «Hərbi xidmətlərə görə» medalı ilə təltif olunublar.

# Ailə Məcəlləsinə tibbi müayinələrlə bağlı dəyişiklik edildi

**Milli Məclisin yaz sessiyasının son plenar iclasında «Dərman vasitələri haqqında» və «Reklam haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb.**

AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Sahibə Qafarova bu məsələnin uyğunlaşdırma xarakteri daşıdığını, müvafiq qanunvericiliyin tələbinə əsasən bu qanun layihəsinə bir oxunuşda baxılıb qəbul ediləcəyini söyləyib.

Sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Dərman vasitələri haqqında» və «Reklam haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, layihə «Qida təhlükəsizliyi haqqında» Qanunun icrası məqsədilə hazırlanıb. Həmin Qanunla «bioloji aktiv qida məhsulları» qida məhsulu olaraq tənzimlənib və ona dair bir sıra tələblər təsbit edilib. Bununla əlaqədar olaraq qeyd olunan qanunlara təklif edilən dəyişikliklərdə «bioloji fəallığa malik qida əlavələri» termininin «bioloji aktiv qida məhsulları» termini ilə əvəz edilməsi, «Dərman vasitələri haqqında» Qanunda təsbit olunan «bioloji aktiv qida məhsulları» anlayışının yeni redaksiyada verilməsi, bioloji aktiv qida məhsullarının reklamına dair tələblərin dəqiqləşdirilməsi nəzərdə tutulur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məsələ barədə bu komitənin rəyini açıqlayaraq qeyd edib ki, bioloji aktiv qida məhsullarının reklamında onların dərman vasitəsi olmaması, habelə qeydiyyata alınmasının təsdiqi ilə bağlı məlumat əks olunmalıdır.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin növbədənkənar sessiyasının növbəti plenar iclasında Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsinə dair məlumatı nəzərə çatdırıb. O, layihə ilə bağlı əlavə heç bir təklifin daxil olmadığını, komitənin müsbət rəy verdiyini söyləyib və sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.



Sənəddə Azərbaycanın diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikah bağlamaq istəyən şəxslərin tibbi müayinədən öz vəsaitləri hesabına müraciət etdikləri diplomatik nümayəndəliyin akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə seçdikləri tibb müəssisəsində keçmələri, habelə Azərbaycanın diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikaha daxil olmaq barədə ərizəyə həmin tibb müəssisələri tərəfindən verilmiş tibbi müayinədən keçdiklərini təsdiq edən sənədin əlavə edilməsi təklif olunur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Gündəliyin digər məsələsi olan Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı təqdim edən Hicran Hüseynova bildirib ki, əhalinin reproduktiv sağlamlığının tibbi aspektləri ilə dövlətin demoqrafik siyasəti arasında sıx əlaqə mövcuddur. Bu mənada, erkən nikah və qohum evlilikləri problemi sosial-iqtisadi əhəmiyyət kəsb edir. Erkən yaşda nikah və qohum evliliklərinin yayılmasına təkan verən amillərdən söz açan komitə sədri bu cür evliliklərin fəsadlarını diqqətə çatdırıb. Mövzu ilə əlaqədar Milli Məclisdə keçirilən geniş müzakirələrdə qaldırılan məsələlərə qanunvericilik təşəbbüsü subyektinin münasibətini açıqlayan komitə sədri qeyd edib ki, onlara gələcəkdə baxılması məqsədəmüvafiq hesab olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsi ilə bağlı komitənin müsbət rəyini səsləndirib və təklif olunan dəyişikliklərin hüquqi və dünyəvi dövlətçilik kontekstində əhəmiyyətini vurğulayıb.

Deputatlar layihə ilə bağlı fikirlərini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin növbədənkənar sessiyasının son iclasında Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihə ilə bağlı deputatların verdiyi təkliflərlə bağlı qanunvericilik təşəbbüsü subyekti ilə müzakirələrin aparıldığını, nəticədə sənədin hazırda təqdim olunan variantda tövsiyə edildiyini söyləyib.

*(Ardı səhifə 6-da)*

# Dərman vasitələri ilə bağlı qanunvericiliyə dəyişikliklər edildi

(Əvvəli səhifə 2-də)

**«Maddə 36-1. Klinik protokol**

Klinik protokol həkim və ya feldşer tərəfindən hər hansı xəstəlik və ya xəstəlik əlamətləri zamanı tibbi yardım göstərilməsi ilə bağlı qərar qəbul edilməsində istifadə edilən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi qaydalar toplusudur.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) klinik protokolları hazırlayır, onların elektron bazasını yaradır və özünün rəsmi internet səhifəsində yerləşdirir.

Klinik protokollar reseptlər yazılarkən əsas götürülür».

Dəyişiklik olunan daha bir sənəd «Məhkəmə ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunudur. Bu Qanunun 23-cü maddəsinin ikinci hissəsinə və 32-ci maddəsinin birinci hissəsinə «vasitələrinin» sözündən sonra «və dərman maddələrinin» sözləri əlavə edilib.

«Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında» Qanunun 8-ci maddəsində «həkim resepti» sözləri «resept» sözü ilə əvəz olunub.

«Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında» Qanunun 13-cü maddəsinə «vasitələri» sözündən sonra «, dərman maddələri və tibb vasitələri» sözləri əlavə edilib.

«Onkoloji yardım haqqında» Qanunun 8.0.6-cı maddəsində «həkim resepti ilə» sözləri «reseptlə» sözü ilə əvəzlənib.

«İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında» Qanunun 18.3-cü maddəsində «milli» sözü «klinik» sözü ilə əvəz edilib.

«Reklam haqqında» Qanunda 29-cu maddədə «tibbi təyinatlı texnikanın və məmulatların» sözləri «tibb vasitələrinin» sözləri ilə, «həkim resepti» sözləri «resept» sözü ilə, «tibbi təyinatlı texnika» sözləri «tibb vasitəsi» sözləri ilə əvəz olunub.

Qanunun 30.7-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilib:

«Bu zaman reklamda bioloji fəallığa malik qida əlavəsinin adı səsləndirildikdən dərhal sonra onun dərman vasitəsi olmadığı qeyd edilməli, həmçinin bioloji fəallığa malik qida əlavəsinin əmtəə nişanı adı ilə eyni fonda, ölçüdə və şriftdə olan aydın seçilən «DƏRMAN VASİTƏSİ DEYİLDİR» sözləri görünməlidir».

«Lisenziyalar və icazələr haqqında» Qanunun 19-cu maddəsinə aşağıdakı məzmunda 19.9-2-ci və 19.9-3-cü maddələr əlavə olunub:

«19.9-2. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 6-2.4-cü maddəsinə əsasən icazə verən orqan ərizəyə, ona əlavə edilmiş sənədlərə (məlumatlara) baxılmasının və dərman vasitələrinin sadələşdirilmiş ekspertizasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 11 (on bir) iş günü müddətində dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatını tanıyaraq dərman vasitələrinin dövlət reyestrinə daxil edir və ya imtina haqqında qərar qəbul edir.

19.9-3. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 9-1.12-ci maddəsinə əsasən icazə verən orqan ərizəyə, ona əlavə edilmiş sənədlərə (məlumatlara) baxılmasının, dərman vasitələrinin və ya dərman maddələrinin ekspertizasının nəticəsi əsasında 23 (iyirmi üç) iş günü, dərman vasitələrinin sadələşdirilmiş ekspertizasının nəticəsi əsasında isə 13 (on üç) iş günü müddətində dərman vasitələrinin idxalına icazəni və onun əlavəsini verir və ya icazənin verilməsindən imtina haqqında qərar qəbul edir».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmçinin ««Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanununun tətbiqi və «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» Fərman da verib.

Sənədə əsasən, müəyyən edilir ki, «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunun 36-1-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir; həmin maddədə «orqan (qurum)» dedikdə Səhiyyə Nazirliyi nəzərdə tutulur.

Fərmanda Nazirlər Kabinetinə tapşırılır ki, «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

Həmçinin bu Fərmanla «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilib: ikinci abzasa «46-cı maddəsinin» sözlərindən əvvəl «36-1-ci maddəsinin birinci və ikinci hissələrində,» sözləri əlavə olunub; onuncu abzasa «hissəsində» sözündən sonra «və 36-1-ci maddəsinin birinci və ikinci hissələrində» sözləri əlavə edilib.

Dövlət başçısının imzaladığı daha bir sənəd «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında» 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədədir.

Bu sənədə əsasən, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları»nın 2 nömrəli Əlavəsi - «İxracı və idxalı müvafiq dövlət orqanlarının rəyi alınmaqla aparılan spesifik malların (xidmətlərin və əqli mülkiyyətin) Siyahısı»nın «İdxal» hissəsinin üçüncü abzasının «Malların adı» sütununa «o cümlədən» sözlərindən sonra «dərman maddələri,» sözləri əlavə olunub və həmin sütunda «və tibbi ləvazimatlar» sözləri «, habelə tibb vasitələri» sözləri ilə əvəz edilib.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 8.7-1 - 8.7-4-cü yarımbəndlər əlavə edilib:

«8.7-1. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dərman vasitələrinin, dərman maddələrinin və tibb vasitələrinin dövlət qeydiyyatını həyata keçirmək, habelə dərman vasitələrinin dövlət reyestrini aparmaq;

8.7-2. Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin siyahısını hazırlamaq, ictimaiyyətin məlumatlandırılması məqsədilə rəsmi internet səhifəsində yerləşdirmək və rübdə bir dəfə yenilənməsini təmin etmək;

8.7-3. dərman vasitələrinin keyfiyyətli, effektiv və təhlükəsiz olmamasına dair əsaslandırılmış faktlar aşkar edildikdə, həmin dərman vasitələrinin dövlət reyestrinə daxil edilməsindən imtina etmək, dərman vasitələrinin dövlət reyestrinə daxil edilmiş və ya «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsində nəzərdə tutulan dərman vasitələrinin Azərbaycan Respublikasında tətbiqini qadağan etmək və bu barədə ictimaiyyəti məlumatlandırmaq;

8.7-4. tibb vasitələrinin risk dərəcəsindən asılı olaraq təsnifatını müəyyən etmək».

22-ci bəndin birinci cümləsinə «vasitələrinin» sözündən sonra «və dərman maddələrinin» sözləri əlavə olunub.

«Dərman vasitələri haqqında» Qanunun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanının 2.3-1-ci bəndinə «16-1.1-ci» sözlərindən əvvəl «16.5-ci,» sözləri əlavə edilib.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli 692 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti haqqında Əsasnamə»nin 10.7-ci bəndində «vasitələrini, tibbi ləvazimatları, avadanlıq və cihazları» sözləri «və tibb vasitələrini» sözləri ilə əvəz olunub.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli və 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanları ilə təsdiq edilmiş «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası»nın 1.3.3-cü yarımbəndi aşağıdakı redaksiyada verilib:

«1.3.3. dərman və tibb vasitələri;».

«Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqi və «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 avqust tarixli 2298 nömrəli Fərmanının 6-cı hissəsində «2.3-2-ci» sözləri «2.2.3-cü» sözləri ilə əvəz edilib.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın 7-ci hissəsinin «2022?2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın Tədbirlər Planı»nın 3.3.5-ci yarımbəndində aşağıdakı dəyişikliklər olunub:

3-cü abzasın «Tədbirlər və layihələr», «Digər icraçılar» və «Nəticə indikatorları» sütunlarında (hər üç halda) «kliniki» sözü «klinik» sözü ilə əvəz olunub, 4-cü abzasda «Tədbirlər və layihələr» və «ilkin nəticələr» sütunlarında «dərman və tibbi preparatlar» sözləri «dərman və tibb vasitələri, habelə dərman maddələri» sözləri ilə əvəz edilib; «baza ili üzrə göstəricilər» və «aralıq nəticələr» sütunlarında ismin müvafiq hallarında «dərman preparatı» sözləri ismin müvafiq hallarında «dərman vasitələri və dərman maddələri» sözləri ilə əvəz olunub.

# Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Ulu Öndərin və şəhid həkimlərin məzarlarını ziyarət edib

**Ümummilli lider Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçiləri Günü kimi qeyd olunur.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, tibb işçilərinin peşə bayramı ilə əlaqədar səhiyyə naziri Teymur Musayev, nazirliyin aparatı və tabeliyindəki müəssisələrin rəhbər şəxsləri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə gül dəstələri qoyublar.

Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, böyük alim, ictimai-siyasi xadim, səhiyyə təşkilatçısı Əziz Əliyevin və tanınmış elm xadimi Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər düzülüb.

Daha sonra İkinci Fəxri xiyabanda Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət edilib. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan həkimlərin əziz xatirəsi anılıb, məzarları üzərinə tər güllər düzülüb.

Qeyd edək ki, Vətən müharibəsində 11-i həkim, 7-si feldşer və 26-sı tibbi təlimatçı olmaqla, ümumilikdə 44 tibb işçisi qəhrəmancasına şəhid olub. Həmçinin 159 hərbi tibb işçisi müxtəlif dərəcəli bədən xəsarəti alıb.



# Azərbaycan və Albaniya səhiyyə nazirlərinin görüşü keçirilib



**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində Albaniya Respublikasının səhiyyə naziri Albana Koçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan **səhiyyə naziri Teymur Musayev** ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Nazir dövlət başçılarının mütəmadi görüşlərinin və əldə olunan razılaşmaların Azərbaycan - Albaniya münasibətlərini daha yüksək səviyyəyə qaldırdığını vurğulayıb.

Teymur Musayev həmçinin iki ölkə arasında səhiyyə sahəsində əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş potensialın olduğunu bildirib. Nazirin sözlərinə görə, ölkələrimizin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur. Bundan əlavə, müalicə turizmi sahəsində də əməkdaşlıq potensialı var: «Mineral su mənbələri və digər kurort-rekreasiya resursları Azərbaycana və Albaniyaya çoxlu turist cəlb edir. Bunu nəzərə alaraq, ölkələrimizin vətəndaşlarının sağlamlığının bərpası və reabilitasiyası məqsədilə sanator-kurort xidmətlərinin təkmilləşdirilməsi olduqca vacib məsələdir», — deyə nazir əlavə edib.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən **Albana Koçi** ölkələrimiz arasında dostluq əlaqələrinin tarixi fakt olduğunu vurğulayıb: «Albaniya ilə Azərbaycan arasında fəal əməkdaşlıq beynəlxalq təşkilatlar çərçivəsində, ilk növbədə, BMT və İslam Əməkdaşlıq Təşkilatında da özünü göstərir».

Albana Koçi çıxışında bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əhəmiyyətini xüsusilə vurğulayıb.

Albaniyalı nazir ölkələrimizin səhiyyə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da yeni müstəvidə uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Sonda tərəflər prioritet istiqamətlər üzrə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# Azərbaycan və Avropa Kardioloqlar Cəmiyyəti əməkdaşlığı genişləndirməkdə maraqlıdır



**Azərbaycan Səhiyyə Nazirliyində Avropa Kardioloqlar Cəmiyyətinin (ESC) prezidenti, İsveçrənin Sürix Universitetinin Molekulyar Kardiologiya Mərkəzinin direktoru Tomas F.Lüşerlə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ölkəmizdə kardiologiyanın inkişaf tarixindən danışıb. Nazir vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və uzaqgörənliyi sayəsində tibbin bütün sahələrində, o cümlədən kardiologiyada mühüm nəticələr əldə olunub: «Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan səhiyyəsinin müasir infrastrukturu qurulub. Bir sıra dövlət proqramlarının reallaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük xidmətləri var».

Teymur Musayev çıxışında Avropa Kardioloqlar Cəmiyyətinin ürək-damar xəstəlikləri ilə qlobal mübarizənin təşviqi üçün vacib olan, kardiologiyanın bütün spektrlərini əhatə edən fəaliyyətini yüksək qiymətləndirib. Nazir ESC-nin ürək-damar mütəxəssislərinin peşəkarlığını da qeyd edib: «Bu unikal şəbəkə bizə ürək-damar xəstəliklərinin təsirinin azaldılması istiqamətində geniş imkanlar yaradır».

Səmimi qəbula görə minnətdarlığını bildirən Avropa Kardioloqlar Cəmiyyətinin prezidenti Tomas F.Lüşer belə görüşlərin təcrübə və bilik mübadiləsi baxımından çox vacib olduğunu vurğulayıb. Cəmiyyətin rəhbəri qurumun fəaliyyəti haqqında ətraflı məlumat verib. Onun sözlərinə görə, ESC Avropanın 57 müvafiq peşə birliyini, o cümlədən Azərbaycanın milli kardioloji cəmiyyətini özündə birləşdirir.

Bakıda keçirilən III Ürək Çatışmazlığı Yeniliklər Konqresinin əhəmiyyətini vurğulayan Tomas F.Lüşer qeyd edib ki, Azərbaycanda səhiyyənin müxtəlif sahələrinin, o cümlədən kardiologiyanın aktual problemlərinə həsr olunan beynəlxalq konqreslər hər zaman yüksək səviyyədə təşkil olunur.

Görüşdə Avropa Kardioloqlar Cəmiyyətinin Azərbaycan Səhiyyə Nazirliyi ilə kardiologiya sahəsində əməkdaşlığının genişləndirilməsi barədə faydalı müzakirələr aparılıb.

Qeyd edək ki, dünyanın ən çox istinad edilən alimlərindən biri olan professor Tomas F.Lüşer ürək-damar təbabətinə dair 500-dən çox elmi məqalə, 200-dən çox resenziya və kitab fəsillərinin müəllifidir.

# «Sağlam ailə modeli və nikah hüququ»

## Milli Məclisdə bu mövzuda ictimai dinləmə keçirilib

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin «Sağlam ailə modeli və nikah hüququ» mövzusunda birgə ictimai dinləməsi keçirilib.**

Bu barədə parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri **Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova** açaraq, erkən nikahların, qohum evliliklərinin hazırda aktual məsələlərdən olduğunu qeyd edib. O, bu məsələ ilə əlaqədar müxtəlif araşdırmaların aparıldığını, hesabatların hazırlandığını deyib, dünyada bu sahədə mövcud vəziyyətlə bağlı bəzi statistik göstəriciləri səsləndirib. Ölkəmizdə də belə halların olduğunu bildirən komitə sədri ailə qanunvericiliyinin tənzimlənməsi istiqamətində müvafiq işlərin görüldüyünü söyləyib. Diqqətə çatdırılıb ki, məsələyə dair parlamentə qanun layihəsi daxil olub və komitə iclasında geniş müzakirə edilib.

Komitə sədri ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində güclü qanunvericilik bazasının formalaşdığını vurğulayıb. O, həmçinin ailə institutunun möhkəmlənməsi, bu sahədə olan boşluqların aradan qaldırılması istiqamətində də qanunvericiliyin davamlı olaraq təkmilləşdirildiyini qeyd edib. Hicran Hüseynova daxil olan qanun layihəsində nikah yaşının bir ildən çox olmayaraq azaldılması halının aradan qaldırılması ilə bağlı dəyişikliyin təklif olunduğunu, yetkinlik yaşına çatmayanla qeyri-rəsmi nikaha daxil olan şəxs və buna şərait yaradan valideynlər barəsində İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində məsuliyyətin nəzərdə tutulduğunu deyib. O, bununla yanaşı, yetkinlik yaşına çatmayanların dini nikaha daxil olmasına şərait yaradan din xadimləri və evlilik mərasimlərinin keçirildiyi məkan sahibləri üçün də məsuliyyətin müəyyən edildiyini söyləyib. Layihədə



həmçinin Ailə Məcəlləsinin nikahın bağlanmasına mane olan hallara dair 12-ci maddəsində aralarında nikahın bağlanmasına yol verilməyən subyektlər dairəsinin genişləndirilməsi ilə bağlı təkliflərin irəli sürüldüyünü nəzərə çatdırıb.

Hicran Hüseynova 2011-ci ildə o zaman millət vəkili olan Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Ailə Məcəlləsinə dəyişiklik edilərək nikah yaşının qadınlar və kişilər üçün 18 yaş müəyyən olunduğunu və artıq 2012-ci ildən başlayaraq yaşı 1 yaş azaldılaraq 18 yaşadək nikaha girən qızların sayının azaldığını qeyd edib. Komitə sədri o dövrdə həm Ailə, həm də Cinayət Məcəlləsinə edilən dəyişikliklərin müsbət nəticələr verdiyini söyləyib.

Hicran Hüseynova məlumat verib ki, Azərbaycanda doğulan hər on iki uşaqdan biri talassemiya xəstəsidir. Bunun da əsas səbəblərindən biri yaxın qohumların evliliyidir. Komitə sədri bildirib ki, yaxın qohumların nikahından, adətən, xəstə uşaqların doğulması faktdır. Onun sözlərinə görə, belə evliliklər fəsadlarla nəticələnir və sağlamlıq baxımından zərərlidir.

Ölkəmizdə bu istiqamətdə aparılan işlərdən, maarifləndirmə tədbirlərindən danışan H.Hüseynova qeyd edib ki, erkən nikah və onlarda doğulan uşaqların sayı tədricən azalır: «Statistika göstərir ki, 2011-ci ildə belə qadınlardan olan uşaqların sayı 4392 nəfər təşkil edib, 2022-ci ildə isə bu rəqəm 2011 olub».

Komitə sədri təəssüflə bildirib ki, bütün bunlara baxmayaraq, erkən nikah, habelə qohum evlilikləri problemi bu gün də aktual olaraq qalmaqdadır. O, qeyd edib ki, bu baxımdan qanunvericiliyə edilən son dəyişikliklər ölkəmizdə ailə təsisatının gücləndirilməsinə, sağlam ailə modelinin, düzgün ailə münasibətlərinin qurulmasına öz töhfəsini verəcək.

Sonra parlamentin **Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə** çıxış edərək Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklərin mahiyyəti barədə danışıb. O, bu dəyişikliklərin məqsədinin yetkinlik yaşına çatmayan şəxslərin əleyhinə olan əməllərin qarşısının alınması istiqamətində cəza siyasətinin təkmilləşdirilməsindən ibarət olduğunu deyib, qanunvericilikdə erkən evliliklə bağlı nəzərdə tutulan məsuliyyət tədbirlərindən söhbət açıb.

AZƏRTAC xəbər verir ki, aidiyyəti qurumların, vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən dinləmədə **Səhiyyə Nazirliyinin Ailə və uşaq sektorunun müdiri Aynurə Zeynalova** bildirib ki, Azərbaycanda hazırda 700-ə yaxın irsi xəstəlik var. Bunun da əsas səbəblərindən biri uşaqların yaxın qohum evliliklərindən doğulmasıdır. Anadangəlmə xəstə doğulan uşaqların sayı artır və bu, təşviş doğurur. Xəstəliklərin sayının artmasından narahatlığını ifadə edən nazirliyin rəsmisi yaxın qohumların nikahı barədə qanunvericiliyin təkmilləşdirilməsinin zəruriliyini vurğulayıb.

Tədbirdə deputatlar Ceyhun Məmmədov, Vüqar İskəndərov, Tahir Kərimli, Kamilə Əliyeva, Elşən Musayev, «Təmiz Dünya» İctimai Birliyinin sədri Mehriban Zeynalova, Azərbaycan Pediatrlar Assosiasiyasının sədri Təranə Tağızadə, Pasiyent Təşkilatları İttifaqının və Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili şöbəsinin rəisi Hikmət Quliyev, həmin şöbənin müşaviri Əziz Baqişev, «Sağlam Həyat» İctimai Birliyinin sədri Sədaqət Hüseynova, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Azər Allahverənov və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər.

Çıxışçılar qohum nikahlarının fəsadlarından, milli genofonda vurduğu ziyanlardan bəhs ediblər, belə nikahlardan doğulan uşaqların sağlamlıq problemlərindən, ailələrin qarşılaşdıqları çətinliklərdən danışıblar, erkən və qohum nikahları ilə mübarizədə maarifləndirmənin genişləndirilməsinin, qanunvericiliyin sərtləşdirilməsi tədbirlərinin əhəmiyyətini vurğulayıblar, bu sahədə həyata keçirilən dövlət siyasəti və proqramları ilə bağlı fikirlərini bölüşüblər.

# Ailə Məcəlləsinə tibbi müayinələrlə bağlı dəyişiklik edildi

*(Əvvəli səhifə 3-də)*

Komitə sədri səsləndirilən rəy və təkliflərin gələcəkdə yenidən təhlil edilərək baxılmasının nəzərdə tutulduğunu da qeyd edib. Hicran Hüseynova qanun layihəsinin dövlətimizin demoqrafik, səhiyyə, sosial, iqtisadi siyasəti baxımından mühüm əhəmiyyət kəsb edən mütərəqqi sənəd olduğunu bildirib.

Layihədə nəzərdə tutulan dəyişikliklərdə nikah yaşının azaldılması ilə bağlı istisnanın ləğvi, habelə 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə, həmin yaşda olan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmağa, erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və dini kəbinkəsməyə görə geniş subyektlər dairəsi üçün məsuliyyətin müəyyən edilməsi təklif olunur.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsi ilə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb. O, habelə Cinayət Məcəlləsinin qeyd hissəsi ilə bağlı deputat Erkin Qədirlinin təklif irəli sürdüyünü, bunun qanunvericilik təşəbbüsü subyekti ilə müzakirə olunduğunu və məqsədəmüvafiq hesab edilmədiyini, sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Deputat Erkin Qədirli öz qeydlərini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin uyğunlaşdırma xarakterli qanun layihələri olduğunu və bir oxunuşda baxılıb qəbul ediləcəyini bildirib.

Beləliklə, «Lisenziyalar və icazələr haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumatı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov təqdim edib.

O, bildirib ki, layihə lisenziyalar və icazələr sahəsində prosedurların daha da təkmilləşdirilməsi, eyni zamanda, səmərəliliyin artırılması məqsədilə hazırlanıb. Bu kontekstdə sənəd üç istiqamətdə dəyişiklikləri özündə ehtiva edir. Vüqar Bayramov layihədə təklif olunan dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması müddətlərinin yenilənməsi, dövlət rüsumunun ödənilməməsinin hüquqi nəticələrinin genişləndirilməsi, bir sıra termin və ifadələrin dəqiqləşdirilməsi ilə bağlı təklif olunan dəyişikliklərdən danışıb.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və İnsan hüquqları komitəsinin sədri Zahid Oruc dəyişikliklərlə əlaqədar bu komitələrin rəylərini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin növbədənkənar sessiyası başa çatıb.

# «İqlim dəyişikliyi və səhiyyə: Birgə fəaliyyət üçün qlobal baxış»

## *Azərbaycanın səhiyyə naziri ÜST-nin keçirdiyi strateji dəyirmi masada çıxış edib*




**Ümumdünya Səhiyyə Assambleyasının 77-ci sessiyası çərçivəsində «İqlim dəyişikliyi və səhiyyə: Birgə fəaliyyət üçün qlobal baxış» adlı strateji dəyirmi masa keçirilib. Tədbirdə Azərbaycan nümayəndə heyətinin rəhbəri, səhiyyə naziri Teymur Musayev çıxış edib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan nümayəndə heyətinin rəhbəri qeyd edib ki, bu gün bəşəriyyət iqlim dəyişikliyinin birbaşa və dolayı təsirlərini yaşayır: «Son onilliklərdə sel, quraqlıq, tufan kimi ekstremal hava hadisələrinin tezliyi və şiddəti artıb. Bu iqlim hadisələri dolayısı ilə havanın keyfiyyətinə, suyun çirklənməsinə, torpaqdan istifadə imkanlarına təsir edir».

Qlobal istiləşmə ilə bağlı xəstəliklərin sayının artdığını vurğulayan nazir deyib: «İnsanlar arasında yayılan bir çox xəstəliklər istilik dalğaları, yoluxucu xəstəliklərin ötürülməsi və iqlim dəyişiklikləri ilə ələqələndirilir».

Səhiyyə naziri təəssüf hissi ilə qeyd edib ki, iqlim dəyişikliyinin sağlamlığa təsiri barədə səhiyyə işçilərinin məlumatlılığı qənaətbəxş səviyyədə deyil: «Tədris proqramlarına «İqlim dəyişikliyi və səhiyyə» fənninin daxil edilməsi təklif olunur. Bundan əlavə, Ümumdünya Səhiyyə Təşkilatı Akademiyası iqlim dəyişikliyi və sağlamlıq mövzusunda davamlı təhsilin təmin edilməsi üçün onlayn platformanın yaradılmasında əsas rol oynaya bilər».

İctimai səhiyyə mütəxəssisləri tərəfindən iqlim dəyişikliyinin fiziki və psixi sağlamlığa təsirinin icmalar arasında yayılmasının vacibliyi vurğulanıb.

Nazir Teymur Musayev səhiyyə sistemlərinin karbon dioksid emissiyalarına əhəmiyyətli dərəcədə töhfə verdiyini də qeyd edib: «Yeni iqlim problemlərini yumşaltmaq üçün səhiyyə sisteminin hərtərəfli transformasiyası tələb olunur. Bununla belə, normativlərə uyğunluq, maliyyə məhdudiyyətləri, mədəni müqavimət kimi bir sıra məsələlər «Yaşıl xəstəxanalar və sağlam şəhərlər» konsepsiyasının həyata keçirilməsində əsas problemlər kimi qalır».

Azərbaycanda 2024-cü ilin «Yaşıl dünya naminə həmrəylik ili» elan edilməsini vurğulayan Teymur Musayev cari ildə milli və qlobal səviyyədə həyata keçirilən bir sıra tədbirlərin iqlim dəyişikliyinin mənfi təsirlərinə qarşı olduğunu bildirib: «Azərbaycan neftlə zəngin ölkə olmasına baxmayaraq, hər zaman «yaşıl» gündəliyə sadiq qalıb. Cari ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ölkəmizin ev sahibliyi etməsi bunun əyani sübutudur».

Teymur Musayev inkişaf etməkdə olan, xüsusən də az inkişaf etmiş və kiçik ada ölkələrinin maliyyə cəhətdən dəstəklənməsinin vacibliyini vurğulayıb: «İnanırıq ki, Qoşulmama Hərəkatına 4 illik sədrlik Azərbaycana körpü qurucusu rolunu oynamağa və Bakıda təşkil olunacaq COP29 Yeni Kollektiv Kəmiyyət Məqsədinin razılaşdırılması üçün həm inkişaf edən, həm də inkişaf etməkdə olan ölkələrin mövqelərini uyğunlaşdırmağa imkan verəcək».

Azərbaycanın səhiyyə naziri çıxışının sonunda iqlimin sağlamlığa xoşagəlməz təsirləri ilə üzləşməmək üçün dünya ictimaiyyətini tez və qətiyyətli hərəkət etməyə çağırıb.

# BMT-nin Əhali Fondu Azərbaycan hökuməti ilə tərəfdaşlığını təsdiqləyir

**Səhiyyə Nazirliyində BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycan üzrə ölkə direktoru Məryəm Xan ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan **səhiyyə naziri Teymur Musayev** Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış strukturları, o cümlədən UNFPA ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayıb. Teymur Musayev Azərbaycanın BMT-nin Əhali Fondu ilə bir sıra sahələrdə, o cümlədən səhiyyə sahəsində də səmərəli əməkdaşlığını qeyd edib.

Bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ölkəmizin ev sahibliyi edəcəyini vurğulayan nazir həmçinin Azərbaycanda 2024-cü ilin «Yaşıl dünya naminə həmrəylik ili» elan edilməsini diqqətə çatdırıb, cari ildə milli və qlobal səviyyədə həyata keçirilən bir sıra tədbirlərin iqlim dəyişikliyinin mənfi təsirlərinə həsr olunduğunu bildirib.

Sonda səhiyyə naziri Teymur Musayev Azərbaycan ilə BMT-nin Əhali Fondunun birgə fəaliyyətinin gələcəkdə də səmərəli şəkildə inkişaf edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində səmimi qəbula görə minnətdarlığını bildirən **Məryəm Xan** Azərbaycan ilə təmsil etdiyi təşkilat arasında əldə olunan tərəfdaşlıq səviyyəsini yüksək qiymətləndirib. Onun sözlərinə görə, UNFPA demoqrafiya ilə bağlı məsələlərə, gender bərabərliyinin təşviqi və qadınların sağlamlığının qorunmasına yönələn çoxşaxəli təşəbbüslərində Azərbaycan hökuməti ilə uzunmüddətli tərəfdaşlığa sadiqliyini bir daha təsdiqləyir.

Məryəm Xan həmçinin Azərbaycanı COP29-a ev sahibliyi edəcəyi münasibətilə təbrik edib. Onun sözlərinə görə, cari il üçün prioritet olan COP29 konfransına hazırlıqları dəstəkləmək məqsədilə BMT-nin Əhali Fondu müqayisəli üstünlüyə uyğunlaşdırılan iqlim dayanıqlılığı səylərinə dəstək verəcək.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Səhiyyə Nazirliyində «Malyariyaya son» təşkilatı və Dünya Bankının rəhbər şəxsləri ilə görüş keçirilib

**Səhiyyə Nazirliyində «Malyariyaya son» («Malaria No More») təşkilatının idarəedici direktoru Kelli Uillis və baş direktoru Martin Edlundla görüş keçirilib.**

Görüşdə həmçinin Dünya Bankının İqlim və Sağlamlıq üzrə Qlobal Proqramının rəhbəri Tamer Rabie və qurumun əməliyyatlar üzrə Baş mütəxəssisi Səidə Bağırlı iştirak ediblər.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə ilk növbədə qonaqları salamlayan **səhiyyə naziri Teymur Musayev** ötən ilin martında Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Azərbaycanın «malyariyadan azad ölkə» kimi sertifikatlaşdırılmasını xatırladıb. Onun sözlərinə görə, malyariya ilə mübarizədə uğur həm də beynəlxalq tərəfdaşların uzun illər hərtərəfli dəstəyi sayəsində mümkün olub.

Nazir həmçinin bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ölkəmizin ev sahibliyi edəcəyini diqqətə çatdırıb. Azərbaycanda dövlət başçısının müvafiq Sərəncamı ilə 2024-cü ilin «Yaşıl dünya naminə həmrəylik ili» elan edilməsini vurğulayan Teymur Musayev bu il milli və qlobal səviyyədə həyata keçirilən bir sıra tədbirlərin iqlim dəyişikliyinin mənfi təsirlərinə həsr olunduğunu bildirib.

Nazir Bakıda keçirilən «Sağlam Gələcəklərin Proqnozlaşdırılması» Qlobal sammitinin iqlim dəyişikliyi və onun insan sağlamlığına təsirlərini müzakirə etmək üçün uğurlu platforma olduğunu qeyd edib. Eyni zamanda, sammitin iqlim sektorları üzrə mütəxəssislərin əməkdaşlığı üçün bir fürsət olduğu diqqətə çatdırılıb.

**Kelli Uillis** və **Martin Edlund** Azərbaycanın ölkədə malyariya xəstəliyinin aradan qaldırılması istiqamətində həyata keçirdiyi tədbirləri yüksək qiymətləndiriblər. «Malyariyaya son» təşkilatının rəhbərliyi ölkəmizi COP29 kimi mötəbər tədbirin ev sahibliyinə seçilməsi münasibətilə təbrik edib. Onların sözlərinə görə, Azərbaycanın COP29-un ev sahibi kimi səhiyyəni iqlim siyasətinin vacib hissəsi kimi irəli çəkmək və investisiya gündəliyini təşviq etmək imkanı var. Həmçinin Bakıda keçirilən «Sağlam Gələcəklərin Proqnozlaşdırılması» Qlobal sammitinin əhəmiyyəti qeyd olunub.

Öz çıxışlarında **Tamer Rabie** və Səidə **Bağırlı** iqlim-sağlamlıq böhranının miqyasını vurğulayaraq qeyd ediblər ki, Dünya Bankı hər bir ölkəyə uyğun iqlim və sağlamlıq həlləri üçün maliyyələşdirmənin maksimum dərəcədə artırılmasının zəruriliyini və aktuallığını bildirir. Bununla əlaqədar olaraq, Dünya Bankı ölkə səviyyəsində investisiyaların və fəaliyyətin miqyasını artırmaq üçün çoxtərəfli və milli ictimai inkişaf banklarını birləşdirən İqlim-Sağlamlığın Maliyyəsi üzrə İnkişaf Bankı İşçi Qrupu yaradıb.

Sonda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın səhiyyə naziri ilə ÜST-nin Baş direktoru arasında görüş keçirilib

**Ümumdünya Səhiyyə Assambleyasının 77-ci sessiyası çərçivəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri, səhiyyə naziri Teymur Musayevlə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus arasında görüş keçirilib.**

Səhiyyə Nazirliyinin Mətbuat xidmətinin məlumatına görə, görüşdə **Teymur Musayev** ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb və ötən müddət ərzində ÜST-nin Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Öz növbəsində **Tedros Adhanom Gebreyesus** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ÜST ilə əməkdaşlığa verdiyi önəmi yüksək qiymətləndirib. ÜST-nin Baş direktoru gələcəkdə də təşkilatın Azərbaycanla birgə layihələrinin uğurla reallaşdırılacağına əminlik ifadə edib.




Ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyi münasibətilə təbriklərini çatdıran ÜST-nin Baş direktoru mötəbər tədbirdə iştirak üçün dəvətə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. Azərbaycanın hər zaman mühüm beynəlxalq tədbirləri ən yüksək səviyyədə təşkil etdiyini vurğulayan Tedros Gebreyesus noyabr ayında keçiriləcək COP29-da iştirakını səbirsizliklə gözlədiyini qeyd edib.

Sonda qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# «Qanımızla yaşadaq!»

**14 iyun tarixi dünyada Ümumdünya Qan Donoru Günü kimi qeyd olunur. Bu il qan donoru kampaniyası «Qanımızla yaşadaq!» şüarı altında keçirilir. Məqsəd qan donorluğunun insanın həyatını xilas edən xeyirxah addım olduğunu ictimaiyyətin diqqətinə çatdırmaqdır.**

Bu əlamətdar günün ilk dəfə qeyd edilməsi 2005-ci ilə təsadüf edib. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində keçirilən 58-ci Assambleyasında ildə bir dəfə donorluq günü keçirilməsi barədə qərar qəbul edilib. Tarix olaraq isə öz kəşfi ilə donorluq işinə böyük töhfə verən Karl Landşteynerin doğum günü, yəni 14 iyun tarixi müəyyən edilib.

Qan insan orqanizmi üçün həyati əhəmiyyət kəsb edir. O, trofik funksiya daşıyır, toxuma və orqanların qaz mübadiləsini təmin edir. Ciddi xəsarət, əməliyyat, kəskin qanaxma, hematoloji və onkoloji xəstəliklər, ağır doğuşlar, mürəkkəb əməliyyatların icrası zamanı qan və onun komponentlərinin köçürülməsi insanı ölümdən qurtara bilər. Hər il dünyada milyonlarla insanın həyatı bu yolla xilas edilir.

Məlumdur ki, insan orqanizmində qanın müəyyən minimal kritik həddi mövcuddur. Zədələnmə, xəstəlik hallarında bu hədd aşılarsa, qan ehtiyatını artırmaq lazımdır. Bu ehtiyatın olmaması insanın həyatını itirməsi ilə nəticələnə bilər. Bunu nəzərə alaraq əminliklə deyə bilərik ki, donorlar 400 mq qan ilə bir həyat xilas edirlər.

Qanı heç bir başqa preparatla əvəz etmək mümkün deyil. Onu yalnız sağlam donordan əldə etmək olar. Kifayət qədər təhlükəsiz qan ehtiyatlarının təmin edilməsinin əsas yolu isə könüllü, yəni təmənna güdməyən donorlardan keçir. Bu yolda ən böyük dəstək müntəzəm könüllü donor aksiyalarının təşkil edilməsidir.

Qan və onun komponentlərinin donorluğu problemi milli səhiyyə sistemimiz üçün vacib məsələlərdən biri hesab olunur. Sülh dövründə və fövqəladə hallarda yüksək texnoloji tibbi yardımın göstərilməsi imkanları və xidmətlərin keyfiyyəti məhz sözügedən problemin həllindən asılıdır. Demək olar ki, tibbin elə bir sahəsi yoxdur ki, orada insanın sağlamlığı və həyatının xilas olunması üçün qan komponentlərinin köçürülməsindən istifadə edilməsin.

Azərbaycan Respublikasında donor qanının və onun komponentlərinin təmin edilməsi üzrə milli siyasətin əsas prinsipləri formalaşdırılıb. Buraya aşağıdakılar daxildir:

a) Donorluğun dəstəklənməsi, qan komponentlərinin hazırlanması və köçürülməsi barədə qanunvericilik bazası, onların təhlükəsiz istifadəsinin təminatına dair hüquqi normativ sənədlərin işlənib hazırlanması;

b) Yoluxucu infeksiyalarla yoluxma riski aşağı olan əhali qrupları əsasında donor kadrları bazasının yaradılması;

c) Müasir analiz metodlarından istifadə etməklə qanın tərkibində olan və qan vasitəsilə keçən infeksiya daşıyıcılarının marker əsasında müəyyən edilməsi;

d) Ölkənin qanköçürmə müəssisələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən 2005-ci ildə Azərbaycanda «Talassemiyasız həyat naminə» layihəsinin icrasına başlanılması ilə ölkədə bu sahədə müsbət dəyişikliklər müşahidə edilib. Sözügedən proqram Azərbaycanda həmin xəstəliyə qarşı mübarizə sahəsində dönüş nöqtəsi olub. «Talassemiyasız həyat naminə» proqramının həyata keçirilməsi çərçivəsində 2009-cu ildə Bakı şəhərində Talassemiya Mərkəzi istifadəyə verilib. Talassemiyadan əziyyət çəkən xəstələr bu Mərkəzdə dövlət hesabına zəruri dərman preparatları ilə təmin edilirlər və tibbi xidmətlərdən yararlanırlar.




«Talassemiyasız həyat naminə» proqramı çərçivəsində ölkə ictimaiyyəti çox mühüm bir məsələnin — qan donorluğu probleminin həllinə fəal şəkildə qoşulub. Belə ki, Milli Məclis tərəfindən qəbul olunan «Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu 2005-ci ilin may ayında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilib. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən «Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı» (2006-2010 və 2011-2015-ci illər üçün) təsdiq edilib. Bu proqramlar çərçivəsində qan xidməti göstərən müəssisələr dövlət tərəfindən zəruri avadanlıqlarla təmin edilib. Qanın saxlanılması üçün konteynerlər və qanın testi üçün reaktivlərlə təchizat məsələləri öz həllini tapıb. Səhiyyə Nazirliyi qan xidməti müəssisələri şəbəkəsinin fəaliyyətinin optimallaşdırılması və təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görüb. Qan xidməti müəssisələrinin strukturunun müasirləşdirilməsi tədbirləri nəticəsində səmərəlilik səviyyəsi aşağı olan müəssisələr sıradan çıxarılıb ki, bu da donor kadrlarından daha rasional şəkildə istifadə etməyə, donor qanlarında olan və qan vasitəsilə ötürülən yoluxucu xəstəliklərin marker üzrə müayinəsinin yaxşılaşdırılmasına imkan verib.

Xüsusilə vurğulamaq lazımdır ki, bu donorların hər biri könüllülər olub və onlara heç bir ödəniş edilməyib. Heydər Əliyev Fondunun çağırışına uyğun olaraq, təkcə Bakı şəhərində deyil, ölkənin digər regionlarında fəaliyyət göstərən müəssisə və təşkilatlarda könüllü qanvermə aksiyaları təşkil olunur. Bu cür aksiyaların keçirilməsində müxtəlif nazirliklər, yerli icra hakimiyyəti orqanları, dövlət və özəl müəssisələrin rəhbər şəxsləri fəal iştirak edirlər. Əksər vaxt rəhbərlər əvvəlcə özləri qan verirlər və işçilərinə bu yolda nümunə olurlar.

Donorluq aksiyalarının təşkilində tibb işçiləri daha çox fəallıq nümayiş etdirirlər. Onlar Səhiyyə Nazirliyinin müəyyən etdiyi qrafik əsasında müntəzəm olaraq qan verirlər. Hər il keçirilən Aşura günündə daha çox qan verilməsi qeydə alınır. Belə ki, Qafqaz Müsəlmanları İdarəsinin göstərişi əsasında, məscidlərə üz tutan şəxslər qanı ağır xəstə olan şəxslərə verirlər. Bütün bu tədbirlər qan komponenti ehtiyatının toplanmasına və təmin edilməsinə gətirib çıxarır.

Donorlarla hər birimiz fəxr edirik, çünki onlar digər insanlara ən dəyərli, heç bir texnologiya ilə əldə edilməyən, satın alına və əvəz oluna bilməyən neməti — öz qanlarını verirlər. Təsadüfi deyil ki, donor sözü latınca «donore», yəni «bəxş etmək» deməkdir. Çox zaman onların hədiyyəsi digər insanların həyatını xilas edir.

Beynəlxalq Donorlar Günündə təşkil edilən tədbirlər bütün dünyada pasiyentlər üçün daha təhlükəsiz hesab edilən əvəzsiz donorluq fəaliyyətinin təbliğinə istiqamətlənib. Həmin gün donorlar həm özlərinə, həm də qana ehtiyacı olan şəxslərə ən yaxşı hədiyyəni vermiş olurlar. Sizin qanınız kiminsə həyatını xilas edəcək — bu düşüncənin özü belə insana mənəvi zövq verir. Çünki sizin sayənizdə tanımadığınız bir şəxs həyatına davam edə bilir. Bundan gözəl mükafat ola bilərmi?!

Dövlət Proqramının həyata keçirilməsi ilə son 5 ildə qan xidmətinin əsas göstəriciləri xeyli yaxşılaşıb. Proqramın həyata keçirilməsi üçün donorların sırasına daha çox insanın cəlb edilməsi zəruridir. Axı bizim xalqımız xeyirxahlıq, insanpərvərlik, digər şəxslərin dərdinə şərik olmaq və hər zaman başqasına yardım etmək kimi yüksək mənəvi keyfiyyətlərə malikdir.

**Səhər İSMAYILOVA,**
**Talassemiya Mərkəzinin baş həkimi, müalicə işləri üzrə direktor müavini**

# Bakıda «Sağlam Gələcəklərin Proqnozlaşdırılması» Qlobal Sammiti keçirilib

**«Sağlam Gələcəklərin Proqnozlaşdırılması» təşkilatları Bakıda iqlim dəyişikliyi və onun insan sağlamlığına təsirlərini müzakirə etmək üçün Qlobal Sammitə toplaşıblar.**

AZƏRTAC xəbər verir ki, sammitin məqsədi iqlim dəyişikliyi və onun insan sağlamlığına təsirlərini müzakirə etmək üçün iqlim və səhiyyə icmalarını bir araya toplamaq, eləcə də «məlumatlılıqdan fəaliyyətə» birlikdə hərəkət etmək imkanları və strategiyalarını müəyyən etməkdir.

Tədbirin açılışında «Sağlam Gələcəklərin Proqnozlaşdırılması» təşkilatlarının idarəedici direktoru Kelli Uillis, COP29-un baş danışıqçısı, Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Ətraf Mühit, İqlim Dəyişikliyi və Sağlamlıq Departamentinin direktoru Maria Neira və COP28-in baş direktoru Məcid Əl Süvaidi çıxış ediblər.

Sammitdə **ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesusun** tədbir iştirakçılarına videomüraciəti yayımlanıb. ÜST rəhbəri müraciətində deyib: «İqlim dəyişikliyi probleminin həlli üçün təcili birgə fəaliyyət lazımdır. Dünyada bu problemlə bağlı yaşanan hadisələr iqlim dəyişikliyi ilə mübarizə üçün kollektiv fəaliyyətə təcili ehtiyac olduğunu aydın surətdə xatırladır. Biz birlikdə davamlı həll yollarına marağı artıra və gələcək nəsillər üçün daha sağlam Dünya yarada bilərik».

Milyonlarla insanın Asiyada həddindən artıq istidən əziyyət çəkdiyini bildirən Tedros Gebreyesus orada artıq fövqəladə vəziyyətin yarandığını deyib. Diqqətə çatdırıb ki, iqlim dəyişmələri vəba, malyariya kimi xəstəliklərin sürətlə yayılmasına gətirib çıxarır. Bu xəstəliklər də öz növbəsində təcili tədbirlər görmək üçün ən güclü arqumentlərdən birinə çevrilir.




«İqlimin mülayimləşdirilməsindən əldə olunan gəlirlərlə hər il milyonlarla insanın həyatını xilas edə bilərik. Xərclənən hər 1 dollar 4 dollardan çox gəlir gətirə bilər. Bu tədbirlərə həssas insanları istilik dalğalarının təsirindən qorumaq, səhiyyə müəssisələri üçün bərpaolunan enerjiyə sərmayə qoymaq, ətraf mühiti çirkləndirən yanacaqlara subsidiyaların verilməsini dayandırmaq daxildir», — deyə o vurğulayıb.

«Sağlam Gələcəklərin Proqnozlaşdırılması» konsorsiumuna ev sahibliyi edən **«Malyariyaya son» («Malaria No More») təşkilatının baş direktoru Martin Edlund** çıxışında qeyd edib ki, iqlim dəyişikliyi ölümcül ekstremal temperaturdan tutmuş, nəfəs aldığımız havanın keyfiyyətinin pisləşməsi, getdikcə tez-tez baş verən daşqın hadisələrinə səbəb olur, bunlarla əlaqəli yayılan malyariya, denge qızdırması və vəba kimi iqlimə həssas yoluxucu xəstəliklərin artmasına gətirib çıxarır: «Bütün bunlar insan sağlamlığına ciddi zərər yetirməkdədir. Bu sammit sağlamlıq və iqlim sektorları üzrə mütəxəssislərin əməkdaşlığı ilə iqlim dəyişikliyinin səbəb olduğu səhiyyə problemlərinə həll yolları tapmaq üçün həyati bir fürsətdir». Martin Edlund bildirib ki, COP29-da iqlim siyasətində və maliyyələşdirmə danışıqlarında səhiyyəni mərkəzi planda nəzərə almaqla Azərbaycan on milyonlarla insanın həyatını xilas etməyə və dünyanın iqlim dəyişikliyinin təsirlərinə həssas bölgələrində yaşayan 3,3 milyard insanın sağlamlığını qorumağa kömək edə bilər.

Tədbir barədə danışarkən **«Sağlam Gələcəklərin Proqnozlaşdırılması» təşkilatının idarəedici direktoru Kelli Uillis** qeyd edib ki, sağlamlıq məsələlərinin iqlim diskursuna daxil edilməsi qlobal istiləşmənin təsirlərini daha doğru başa düşməyə kömək edir və siyasətçiləri iqlim dəyişikliyi sahəsində verdikləri qərarların insani təsirlərini daha çox nəzərə almağa təşviq edir.

«Sammit sağlamlığı qlobal istiləşmədən qorumaq üçün strategiyaları inkişaf etdirməyə kömək edəcək. Ümid edirik ki, o, həmçinin iqlim dəyişikliyi ilə mübarizə işində yeni ambisiyalar yarada bilər. COP29-dan əvvəl Azərbaycanın dünyaya nümunə göstərmək və iqlim siyasətinin bütün aspektlərinə səhiyyənin daxil edilməsi istiqamətində irəliləyişə nail olmaq imkanı var», — deyə qurumun idarəedici direktoru vurğulayıb.

Tədbirin gedişatında BMT-nin İqlim Dəyişikliyi və Sağlamlıq üzrə Xüsusi elçisi Vanessa Kerri, UNFCCC-nin Hökumətlərarası Dəstək və Kollektiv Tərəqqi üzrə direktoru Cecilia Kinuthia-Njenga, «The Lancet Countdown»un icraçı direktoru Marina Romanello, «Malyariyaya Son» və «Sağlam Gələcəklərin Proqnozlaşdırılması» təşkilatlarının baş icraçı direktoru Martin Edlund və bir çox yüksək rütbəli məruzəçilər iqlim dəyişikliyinin insan sağlamlığına təsirləri barədə fikirlərini bölüşüblər.

Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən bildirildiyinə görə, Qlobal Sammitdə «İqlim və insan sağlamlığı» mövzusunda çıxış edən **Azərbaycan səhiyyə nazirinin müavini Nadir Zeynalov** qeyd edib ki, 3 gün davam edən sammitin məqsədi iqlim dəyişikliyi və onun insan sağlamlığına təsirlərini müzakirə etmək üçün iqlim və səhiyyə icmalarını bir araya toplamaq, eləcə də «məlumatlılıqdan fəaliyyətə» birlikdə hərəkət etmək imkanları və strategiyalarını müəyyənləşdirməkdir. Onun sözlərinə görə, sammit səhiyyə, iqlim və inkişaf sahələri üzrə qlobal liderləri bir araya gətirir və ötən COP28 çərçivəsində Əbu-Dabidə baş tutan analoji tədbirin uğuruna əsaslanır.

**ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı** bildirib ki, ictimai səhiyyədə işçi qüvvəsi iqlim dəyişikliyi mövzusunda xüsusi yer tutur: «Bu, iqlim böhranı ilə əlaqədar olaraq çox aktualdır. Çünki onunla müəyyən edilən əsas ictimai sağlamlıq funksiyaları bilməli olduğumuz bir çox məqamları ehtiva edir və biz bu şəraitdə işləmək və uyğunlaşmaq üçün bacarıqlı olmalıyıq». H.Harmancı söyləyib: «Burada 12 vacib ictimai sağlamlıq funksiyası var, onlardan bir neçəsi çox aktualdır: siyasət, məşğulluq, vəkillik və sairə. Səhiyyə sistemində daha yüksək fəaliyyət səviyyəsi sağlamlığın təşviqi və ictimaiyyətlə əlaqədir. Bu sahələrin ictimai səhiyyə mütəxəssislərinin hazır olması üçün bacarıqlar siyahısında olması çox mühümdür».

Tədbirin sonuncu günündə COP28, COP29 və COP30 təmsilçiləri və ekspertlərin iştirakı ilə COP-a dair davamlılıq dialoqu baş tutub.

Qeyd edək ki, 2020-ci ildə iqlim dəyişikliyi və onun insan sağlamlığı üzərində yaratdığı problemlərə yeni həll yollarının tapılmasını sürətləndirmək üçün fəaliyyətə başlayan «Sağlam Gələcəklərin Proqnozlaşdırılması» təşəbbüsü dünya miqyasında ən həssas icmalara diqqət yetirməklə, iqlim dəyişikliyi kontekstində qlobal sağlamlıq qazanclarını qorumağa və genişləndirməyə çalışır.

Sammit səhiyyə, iqlim və inkişaf sahələri üzrə qlobal liderləri bir araya gətirir və ötən COP28 çərçivəsində Əbu-Dabidə baş tutmuş analoji tədbirin uğuruna əsaslanır.

Budəfəki Qlobal Sammit özəl sektordan, QHT-lərdən, qlobal maliyyə institutlarından və ali təhsildən 200 təşkilatı və 44-dən çox ölkəni təmsil edən 270-ə yaxın liderdən ibarət müxtəlif qrupları bir araya gətirib.

# Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi tibbi aksiyalar keçirib

**Səhiyyə Nazirliyi və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşəbbüsü ilə Tovuz şəhərində akademik Zərifə Əliyevanın anadan olmasının 101 illiyinə həsr olunmuş tibbi aksiya keçirilib.**

Tovuz şəhərinin Dəmiryolu vağzalında Mərkəzin Səyyar Klinikası tərəfindən rayon əhalisinə tibbi xidmət göstərilib.

Ciddi problemlərlə üzləşən və çətin əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılıb.

Aksiyanın əsas məqsədi şəhid, qazi və aztəminatlı ailələrə tibbi xidmət göstərmək olub. Aksiyadakı müayinələr əsasında göz xəstəlikləri ilə bağlı ümumi monitorinqlər aparılacaq və əldə olunan nəticələr müzakirə ediləcək.

Səhiyyə Nazirliyi və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşəbbüsü ilə keçirilən daha bir aksiya Mingəçevirdə baş tutub. Mərkəzin avtomobil səyyar klinikası Mingəçevir şəhər sakinləri üçün Su Elektrik Stansiyasının həyətində tibbi aksiya keçirib.




Aksiya pasiyentləri operativ şəkildə yerində müayinə edərək göz xəstəlikləri ilə bağlı ümumi nəticəyə gəlmək, müşahidə olunan xəstəliyə müalicə metodu tətbiq etmək, ciddi durumla qarşılaşdıqda pasiyentləri mərkəz və ya yaxın ərazidə yerləşən filiallara yönləndirmək məqsədi daşıyıb.

Qeyd edək ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi ölkə əhalisinə təmənnasız oftalmoloji, o cümlədən cərrahi xidmət göstərmək üçün 2005-ci ildə müasir diaqnostik və cərrahi avadanlıqla təchiz olunmuş Səyyar Avtomobil Klinikası təşkil edib. Səyyar klinikanın fəaliyyətinin əsas məqsədi əhalinin vaxt itirmədən, öz yaşadıqları ərazilərdə müayinə, müalicə və əməliyyat olunmasıdır. Səyyar klinikanın fəaliyyətini daha da genişləndirmək üçün 2018-ci ildən Milli Oftalmologiya Mərkəzinin Dəmiryolu Səyyar Klinikası da fəaliyyətə başlayıb.

# Səhiyyə Nazirliyi Laçında kardioloji müayinələr təşkil edib

**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə nazirliyin Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) həkim briqadası Laçın şəhərində əhali üçün kardioloji müayinələr keçirib.**



Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində nazirlik tərəfindən davamlı şəkildə təşkil olunan tədbirlər zamanı vətəndaşlar arasında müxtəlif tibbi müayinələr, eyni zamanda, sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyalar keçirilir.

Tədbirin əsas məqsədi vətəndaşların ürək-damar sistemi xəstəliklərinin qarşısının alınması, miokard infarktı riskinin erkən aşkarlanması və müalicələrin təyin edilməsidir.

Aksiya çərçivəsində institutun kardioloq, nevropatoloq, endokrinoloq, tibb bacısı və laboratoriya üzrə mütəxəssislərindən ibarət briqadası əhaliyə tibbi baxış aparıb, ExoKQ, EKQ müayinələri keçirib. Eyni zamanda, qanda şəkər, ekspres üsulla xolesterinin səviyyəsi müəyyənləşdirilib. Bundan əlavə, müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhət verilib və müvafiq müalicələr təyin olunub.

Ümumiyyətlə, aksiya zamanı 200-dən çox vətəndaş müayinələrdən keçirilib.

Müayinələrdən sonra sağlam həyat tərzinin təşviqi ilə bağlı və yüksək təzyiq və ürək tutması zamanı ilk tibbi yardımın göstərilməsinə dair Laçın ictimaiyyəti üçün maarifləndirici tədbir təşkil olunub.

Ətraflı təqdimatla çıxış edən Kardiologiya İnstitutunun direktoru, professor Gülnaz Dadaşova ürək-damar xəstəliklərinin müasir tibbin ən aktual məsələlərindən biri olduğunu diqqətə çatdırıb. Direktorun sözlərinə görə, ürək xəstəliyi və insult üçün ən əhəmiyyətli davranış risk faktorlarına qeyri-sağlam qidalanma, fiziki aktivlik səviyyəsinin aşağı olması, siqaret və alkoqol kimi zərərli vərdişlər aiddir.

Tədbirdə yerli əhaliyə ürək-damar xəstəlikləri və onların profilaktikası haqqında faydalı məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, işğaldan azad olunan digər ərazilərdə də Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

**Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi ilə birlikdə 2024-cü ilin yay mövsümünə hazırlıqla əlaqədar olaraq, Bakı və Sumqayıt şəhərləri, Lənkəran, Xaçmaz, Astara rayonları ərazisində yerləşən çimərliklərin sanitariya vəziyyətinin müayinəsi və dəniz suyunun keyfiyyət göstəricilərinin laborator tədqiqatının aparılması məqsədilə monitorinqlər keçirib.**

# Səhiyyə Nazirliyi çimərliklərdə dəniz suyunun monitorinqi ilə bağlı məlumat yayıb

Laboratoriya müayinələrinin nəticələrinə əsasən, Bakı şəhərinin Buzovna, Zuğulba, Mərdəkan, Şüvəlan, Novxanı, Görədil, Nardaran, Bilgəh və Pirşağı çimərliklərində dəniz suyunun fiziki-kimyəvi, bakterioloji göstəriciləri norma səviyyəsində olduğu aşkarlanıb.

Bununla yanaşı, Səbail rayonunun Şıx, Qaradağ rayonunun Sahil, Suraxanı rayonunun Hövsan, Xəzər rayonunun Türkan, habelə Sumqayıt şəhərinin çimərliklərinin sanitariya-mühafizə zonalarında, eyni zamanda, ölkənin sahil zolağının şimal bölgəsinin Yalama, Nabran, İstisu, Seyidli kəndi, cənub bölgəsinin Lənkəran və Astara çimərliklərinin qumsallıqlarında rekreasiya əhəmiyyətli monitorinqlər keçirilib.

Aparılan monitorinqlər zamanı həmin ərazilərdən götürülən dəniz suyu nümunələrinin laborator təhlillərinə əsasən, dəniz suyunun tullantı çirkab suları ilə intensiv çirklənmə hallarının hələ də davam etdiyi və çimərliklərdə dəniz suyunda bakterioloji çirklənmə göstəricilərinin mövcud normativlərin tələblərinə cavab vermədiyi müəyyən edilib.

2024-cü ilin çimərlik mövsümündə dəniz suyunun yüksək bakterioloji çirklənmə göstəricilərinin əhalinin sağlamlığı üçün təhlükə yarada biləcəyini nəzərə alaraq, «Sanitariya-epidemioloji salamatlıq haqqında» Azərbaycan Respublikası Qanununa əsasən, Səbail rayonunun Şıx, Qaradağ rayonunun Sahil, Suraxanı rayonunun Hövsan, Xəzər rayonunun Türkan, Sumqayıt şəhəri, şimal bölgəsinin Yalama, Nabran, İstisu, Seyidli kəndi, cənub bölgəsinin Lənkəran və Astara çimərliklərindən istifadənin müvəqqəti olaraq tövsiyə olunmadığı barədə qərar qəbul edilib.

Qeyd edək ki, dəniz suyunun laboratoriya müayinələri zamanı sanitariya-kimyəvi (suyun rəngi, qoxusu, üzən qarışıqlar, asılı maddələr, biokimyəvi oksigen tələbatı, neft məhsulları, fenol) və bakterioloji (bağırsaq çöpləri) göstəricilər araşdırılır.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### «Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu» PHŞ

*Ftiziоterapiya üzrə elmi şöbə:*
Şöbə müdiri (ftiziatriya) - 1.0 (müsabiqə)
Elmi işçi (ftiziatriya) - 1.0 (müsabiqə)

*Ftiziocərrahiyyə üzrə elmi şöbə:*
Şöbə müdiri (ümumi cərrahiyyə), t.ü.f.d. - 1.0 (müsabiqə)
Elmi işçi (ümumi cərrahiyyə) - 1.0 (müsabiqə)

*Pulmonologiya üzrə elmi şöbə:*
Aparıcı elmi işçi (pulmonologiya, terapiya), t.ü.f.d. - 2.0 (müsabiqə)

*Döş qəfəsi cərrahiyyəsi üzrə elmi şöbə:*
Aparıcı elmi işçi (ümumi cərrahiyyə), t.ü.f.d. - 2.0 (müsabiqə)
Elmi işçi (ümumi cərrahiyyə) - 2.0 (müsabiqə)

*Elmi laboratoriya:*
Elmi işçi (laborator diaqnostika, mikrobiologiya) - 2.0 (müsabiqə)
Tibb bacısı (qardaşı) - 10.0
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 1.0
Anestezist - 1.0
Feldşer-laborant - 2.0
Rentgen-texnik - 1.0

***Ünvan: E.Süleyman küç., 2514***
***Telefon: 421-50-91***

### «Respublika Leproz (Cüzam) Xəstəxanası» PHŞ

Tibb bacısı (qardaşı) - 1.0

***Ünvan: Umbakı qəsəbəsi***
***Telefon: 446-80-39***

### 1 nömrəli Uşaq Somatik Sanatoriyası

Tibb bacısı (qardaşı) - 1.0 (fizioterapiya və tibbi bərpa kabineti)
Laborant - 2.0
Tibbi-statistik - 1.0

***Ünvan: Maştağa qəs. M.Mirəliyev küç., 107***
***Telefon: 455-28-23***

### Salyan Rayon Psixiatriya Xəstəxanası

Tibb bacısı (qardaşı) - 2.0
Əczaçı - 1.0

***Ünvan: Şorsulu kəndi***

### Salyan Rayon GEM

Entomoloqun köməkçisi - 1.0

***Ünvan: Q.Səmədov küç., 62***
***Telefon: (02125) 5-23-73***

### «Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu» PHŞ

Kiçik elmi işçi - 1.0 (Mamalıq üzrə elmi şöbə)
Mama - 1.0 (Hamiləliyin patologiyası şöbəsi)
Mama - 1.0 (Zahılıq şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Yenidoğulmuşların reanimasiyası və intensiv terapiya şöbəsi)

***Ünvan: K.Kazımzadə küç., 118***
***Telefon: 510-61-19***

### «Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 3.0
Laborant - 1.0

***Ünvan: Şərifzadə küç., 196***
***Telefon: 432-12-14***

### Nəsimi Rayon GEM

Sanitar-feldşer - 1.0

***Ünvan: K.Səfərəliyeva küç., 43d***
***Telefon: 488-30-15***

### Xətai Rayon GEM

Sanitar-feldşer - 1.0

***Ünvan: Ə.Axundov küç., 24***
***Telefon: 40-33-80***

### «Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu» PHŞ

Böyük elmi işçi - 1.0 (travmatologiya şöbəsi)
Provizor - 1.0

***Ünvan: A.Səhhət küç., 32***
***Telefon: 440-00-05***

### «Milli Hematologiya və Transfuziologiya Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 3.0
Laborant - 3.0

***Ünvan: M.Qaşqay küç., 87***
***Telefon: 40-32-10***

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq

Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@health.gov.az

Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.

İndeks: 1065 Tiraj: 12000

# Nobel mükafatçısı Azərbaycan Tibb Universitetində mühazirə oxuyub

**Ölkəmizdə səfərdə olan dünya miqyaslı alim, Nobel mükafatı laureatı, professor Əziz Səncər Azərbaycan Tibb Universitetində (ATU) olub. ATU-nun rəhbər şəxsləri ilə keçirilən görüşdən sonra professor Əziz Səncər universitetin tələbə və müəllim heyəti qarşısında mühazirə ilə çıxış edib.**






Universitetin mətbuat xidmətindən verilən məlumata görə, **ATU-nun rektoru professor Gəray Gəraybəyli** qonağa universitetin yaranma tarixi, strukturu, tədris proqramı və təhsil prosesi barədə ətraflı məlumat verib. O, artıq 90 yaşını geridə qoyan qocaman universitetin Azərbaycanda yüksəkixtisaslı həkimlərin, elmi araşdırmaçıların yetişdirilməsində böyük rolu olduğunu vurğulayıb. Rektor dünyaşöhrətli alimin ATU-da qonaq olmasını universitet kollektivi, tələbələr və gənc tədqiqatçılar üçün mühüm hadisə kimi dəyərləndirərək Əziz Səncərə minnətdarlığını bildirib.

**ATU-nun Onkologiya kafedrasının müdiri, Tədris Onkoloji Klinikanın müdiri, akademik Əhliman Əmiraslanov** ölkəmizdə elmin inkişafı istiqamətində dövlət səviyyəsində görülən işlərdən danışıb. Təhsilin və səhiyyənin bütün istiqamətləri üzrə müvəffəqiyyət qazanmaq üçün elmi tədqiqatların önəmini vurğulayıb.

**Nobel mükafatçısı, ABŞ-nin Şimali Karolina Universitetinin Biokimya və biofizika fakültəsinin professoru Əziz Səncər** ATU-da olmaqdan məmnunluğunu ifadə edib. O, universitetdə mövcud təhsil prosesi, tələbələrin və rezidentlərin elmi tədqiqatlar aparması üçün yaradılmış şəraitlə maraqlanıb. Dünya şöhrətli alim savadlı nəslin yetişdirilməsi üçün gənclərdə elmə maraq oyatmağın, fizika, kimya, biologiya və texnologiya sahələrini təşviq etməyin əhəmiyyətindən danışıb.

Sonra Nobel mükafatçısının universitetin akt zalında tələbə və müəllim heyəti üçün «Xərçəng xəstəliyinin müalicəsində EdU-nun (5-ethynyl-2'-deoxyuridine) tətbiqi» mövzusunda mühazirəsi dinlənilib. Mühazirədə EdU-nun insan genomuna təsiri, mədəaltı vəzin, mərkəzi sinir sistemi xərçənginin müalicəsində effekti ilə bağlı elmi araşdırmaların nəticələrinə istinad olunub.

Görüşdə görkəmli elm xadimi tələbə və müəllimlərin çoxsaylı suallarını cavablandırıb.

Qeyd edək ki, Əziz Səncər Türk dünyasında təbiət elmləri üzrə Nobel mükafatına layiq görülmüş yeganə alimdir. O, 2015-ci ildə DNT-nin təmiri sahəsində araşdırmalarına görə kimya üzrə Nobel mükafatını alıb. ABŞ-də gen mühəndisliyi sahəsini inkişaf etdirən azsaylı alimlərdən biri olan Əziz Səncər ümumilikdə biofizika və biokimya üzrə bir neçə mühüm kəşfin müəllifidir. Onun icad etdiyi elmi metodlar gen mühəndisliyi və xərçəng xəstəliyinin müalicəsi sahəsində geniş imkanlar açır.

# Səhiyyə Nazirliyi Füzuli, Zəngilan və Cəbrayılda tibbi müayinə aksiyası təşkil edib

**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə nazirliyin K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun (ETPİ) həkim briqadası tərəfindən Füzuli şəhəri, Zəngilan rayonunun Ağalı kəndi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində uşaqlar üçün tibbi müayinələr təşkil edilib.**







«İşğaldan azad olunan ərazilərə Böyük Qayıdış» Proqramı çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq təşkil olunan tədbirlər zamanı əhali arasında tibbi xidmətə əlçatanlığın təmin edilməsi və ilkin səhiyyə xidmətinin təkmilləşdirilməsi məqsədilə kompleks tibbi müayinələr və sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyalar keçirilir.

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil olunan aksiya çərçivəsində ETPİ-nin pediatrları, uşaq cərrahı, kardioloq, nevroloq və oftalmoloq tərəfindən uşaqlara yerində profilaktik baxışlar keçirilib və müvafiq müalicələr təyin edilib.

Tədbir zamanı 350-yə yaxın, o cümlədən Zəngilanda 200-ə yaxın, Cəbrayılda 100-ə yaxın və Füzulidə 50 uşaq həkimlər tərəfindən ümumi müayinədən keçiriliblər. Bundan əlavə, xəstəliklər aşkarlanan uşaqların sonrakı mərhələdə müalicəsi üçün göndərişlər verilib.

Müayinələrdən sonra peyvəndləmənin əhəmiyyəti və ana südündən əlavə qidalanmanın qaydaları haqqında Zəngilan və Cəbrayıl ictimaiyyəti üçün maarifləndirici tədbir təşkil olunub. ETPİ-nin həkim pediatrları Gülnaz Ağayeva və Günay Salehova ətraflı təqdimatlarla çıxış ediblər. Həkim-pediatrlar valideynlərə tövsiyələrini veriblər, onları maraqlandıran sualları cavablandırıblar.

Tədbirin sonunda Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, işğaldan azad olunan digər ərazilərdə də Səhiyyə Nazirliyi tərəfindən davamlı olaraq tibbi müayinələrinin və maarifləndirici tədbirlərin keçirilməsi nəzərdə tutulub.

# Ötən il Səhiyyə Nazirliyi tərəfindən təmir-tikintisi başa çatdırılan tibb müəssisələrinin sayı açıqlanıb

**2023-cü ildə 1 570 nəfər müharibə iştirakçısı tibbi reabilitasiya xidmətləri, 612 nəfər şəhid valideyni isə lazımi tibbi və psixoloji yardımla təmin olunub.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidməti AZƏRTAC-ın sorğusuna cavab olaraq məlumat verib.

Bildirilib ki, Səhiyyə Nazirliyi Vətən müharibəsi iştirakçıları və şəhid olmuş vətəndaşların ailə üzvlərinə xüsusi həssaslıqla yanaşır və müvafiq tibbi yardımla təmin olunmasını daim nəzarətdə saxlayır. Döyüş əməliyyatları nəticəsində zərərçəkmiş hərbçilərə 12 «Psixoloji Yardım Mərkəzi»ndə psixoloji yardımın göstərilməsi davam etdirilib. Bu mərkəzlərdən ikisi Səhiyyə Nazirliyinin tabeliyində — Psixi Sağlamlıq Mərkəzi və Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında fəaliyyət göstərir

Həmçinin bildirilib ki, 2023-cü il ərzində 9-u Bakı şəhərində, 12-si regionlarda olmaqla, ölkə üzrə ümumilikdə 21 tibb müəssisəsində təmir-tikinti işləri aparılıb. Hesabat dövründə 13 tibb müəssisəsində təmir-tikinti işləri başa çatdırılıb.


Pancreplus
...plyusları sayılmazdır!
Ferment çatışmazlığı (xroniki pankreatit və həzm sistemi orqanlarının digər xroniki xəstəlikləri nəticəsində həzm pozğunluğu)
Meteorizm, qeyri infeksion ishal
Qarın boşluğu orqanların rentgen və USM hazırlıq dövrü
Pancreplus
Food Supplement
BION Corporation LTD


CALCIDEVIT
Calcium Citrate Malate & Vitamin D3
HƏRƏKƏTƏ KEÇ,
YENİLİKLƏRİ SEÇ!
Kalsium və D vitamini defisiti
Osteoporoz
Sümük sınıqları
Klimakterik dövr
CALCIDEVIT
BION Corporation LTD


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının Respublikamızda yeganə distribütoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az